**UDC:** 070,49
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 437
10.33864/2617-751X.2026.v9.i1.223-233

# THE MAIN DIRECTIONS OF UYGHUR PHILOSOPHICAL THOUGHT IN THE 18TH–19TH CENTURIES

**Zohra Yusifzade***

**Abstract.** 16th-17th centuries – The Yarkand Khanate played a significant role in the development of the Uyghur people's cultural and political power. From the late 16th century, scholars affiliated with the Naqshbandi order held political authority, and later the Dzungars governed the region for a period of time. From the second half of the 18th century onward, the Chinese-Manchu occupation intensified the Uyghur people’s struggle for freedom. In the active resistance against colonial policy and reactionary ideology, progressive socio-political issues came to the forefront among the Uyghur people throughout the 19th century. In the first half of the 19th century, Uyghur intellectuals such as Muhammad Sadiq Kashgari, Abdurahim Nizari, Turdi Garibi, Imir Husayn Saburi, Nazugum, and others addressed socio-political as well as philosophical and ethical issues, fought for the spiritual and social liberation of the people, and carried out active efforts in this direction. Their works contain ethical and original ideas that remain relevant today and undoubtedly contribute to the moral education of the younger generation. From this perspective, the study of the Uyghur people's centuries-long history of socio-philosophical and ethical thought holds great significance.

**Keywords:** Uyghur philosophy, 18th-19th century Eastern Turkestan, socio-political thought, Uyghur thinkers

---

* PhD candidate in the History of Philosophy at Baku State University; Baku, Azerbaijan
E-mail: zohrayusif@mail.ru
https://orcid.org/0009-0003-9923-1924

**To cite this article:** Yusifzade, Z. [2026]. THE MAIN DIRECTIONS OF UYGHUR PHILOSOPHICAL THOUGHT IN THE 18TH–19TH CENTURIES. *“Metafizika” journal, 9*(1), pp.223-233.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.223-233
***Article history:***
**Received**: 02.12.2025 **Revised**: 05.01.2026 **Accepted**: 02.02.2026 **Published**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 070,49
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 е)64
**MJ №** 437
10.33864/2617-751X.2026.v9.i1.223-233

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ УЙГУРСКОЙ ФИЛОСОФСКОЙ МЫСЛИ XVIII–XIX ВЕКОВ

**Зохра Юсифзаде***

**Абстракт.** XVI–XVII века – Янчэнский ханат сыграл важную роль в развитии культурной и политической мощи уйгурского народа. С конца XVI века ученые, принадлежащие к ордену Наqшбандий, обладали политической властью, а позднее Дзунгары некоторое время управляли регионом. Со второй половины XVIII века китайско-маньчжурская оккупация усилила освободительную борьбу уйгурского народа. В активной борьбе против колониальной политики и реакционной идеологии в течение XIX века среди уйгурского народа на передний план выдвигались прогрессивные общественно-политические вопросы. В первой половине XIX века уйгурские просветители - Мухаммед Садык Кашгари, Абдуррахим Низари, Турды Гариби, Имир Хусейн Сабури, Назыгум и другие - выступали с социально-политическими и философско-этическими идеями, вели борьбу за духовную и социальную свободу народа и активно действовали в этом направлении. В их произведениях содержатся этические и оригинальные идеи, которые остаются актуальными и в наше время и, несомненно, вносят вклад в духовное воспитание молодого поколения. С этой точки зрения, изучение многовековой истории общественно-философской и этической мысли уйгурского народа имеет большое значение.

**Ключевые слова:** уйгурская философия, Восточный Туркестан XVIII–XIX веков, общественно-политическая мысль, уйгурские мыслители

---

* Докторант по специальности «История философии» Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: zohrayusif@mail.ru
https://orcid.org/0009-0003-9923-1924
**Цитировать статью:** Юсифзаде, З. [2026]. ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ УЙГУРСКОЙ ФИЛОСОФСКОЙ МЫСЛИ XVIII–XIX ВЕКОВ. *Журнал «Metafizika», 9*(1), с.223-233.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.223-233
***История статьи:***
**Поступила**: 02.12.2025 **Переработана**: 05.01.2026 **Принята**: 02.02.2026 **Опубликована**: 15.03.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 070,49
**KBT:** 63.3(2)6-6
**MJ №** 437
10.33864/2617-751X.2026.v9.i1.223-233

# XVIII-XIX ƏSRLƏR UYGUR FƏLSƏFİ FİKRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Zöhrə Yusifova***

**Abstrakt.** XVI-XVII əsrlər - Yarkənd xanlığı uyğur xalqının mədəni və siyasi gücünün inkişafında mühüm rol oynamışdır. XVI əsrin sonlarından etibarən Nəqşibəndi təriqətinə mənsub hocalar siyasi gücə malik olmuş, daha sonra Cungarlar bir müddət regionu idarə etmişlər. XVIII əsrin ikinci yarısından etibarən isə Çin-Mancur işğalı uyğur xalqının azadlıq mübarizəsini gücləndirmişdir. Müstəmləkə siyasətinə və mürtəce ideologiyaya qarşı fəal mübarizədə Uyğur xalqı arasında XIX əsr ərzində mütərəqqi ictimai-siyasi məsələlər ön planda olmuşdur. XIX əsrin birinci yarısında uyğur ziyalıları – Məhəmməd Sadıq Kaşğari, Əbdurəhim Nizari, Turdı Qaribi, İmir Hüseyn Səburi, Nazıqum və başqaları ictimai-siyasi və fəlsəfi-əxlaqi məsələlərlə bağlı çıxışlar etmiş, xalqın mənəvi və sosial azadlığı uğrunda mübarizə aparmış, fəaliyyət göstərmişlər. Onların əsərlərində etik və orijinal fikirlər mövcuddur ki, bu fikirlər bu gün də aktualdır və gənc nəslin mənəvi tərbiyəsinə şübhəsiz töhfə verir. Bu baxımdan Uyğur xalqının əsrlər boyu davam edən ictimai-fəlsəfi və etik düşüncə tarixinin öyrənilməsi mühüm əhəmiyyətə malikdir.

**Açar sözlər:** Uyğur fəlsəfəsi, XVIII–XIX əsrlər Şərqi Türküstan, ictimai-siyasi fikir, uyğur mütəfəkkirləri

---

* Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi ixtisası üzrə doktorantı; Bakı, Azərbaycan
E-mail: zohrayusif@mail.ru
https://orcid.org/0009-0003-9923-1924

**Məqaləyə istinad:** Yusifova, Z. [2026]. XVIII-XIX ƏSRLƏR UYGUR FƏLSƏFİ FİKRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ. *“Metafizika” jurnalı, 9*(1), səh.223-233.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.223-233
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 02.12.2025 **Yenidən baxılıb**: 05.01.2026 **Təsdiqlənib**: 02.02.2026 **Dərc olunub**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Şərqi Türküstanın XVI əsrdən XVIII əsrə qədərki dövrü, xüsusən Yarkənd xanlığı (1514-1680) və Xocalar dövrünün tarixi-mədəni irsi bəzi qaynaqlar xaricində sistemli şəkildə geniş araşdırma mövzusu olmamışdır. Həmin dövrlə bağlı bizi maraqlandıran tarixi-fəlsəfi irs və düşüncə sistemi ilə bağlı az sayda mənbələrə rast gəlinir.

Yarkənd xanlığının mövcudluğu uyğur xalqının gücünün və qüdrətinin möhkəmlənməsində, mədəniyyətinin çiçəklənməsində mühüm rol oynamışdır. XVI əsrdən etibarən Yarkənd xanlığı Xocaların təsiri altına düşmüş və onlar xan üzərinə güclü təsirə malik olmuşdular. Xocalar müsəlman idilər və özlərini Məhəmməd Peyğəmbərin və ya ilk dörd ərəb xəlifəsinin şəcərəsindən gəldiyini iddia edirdilər. Nəqşibəndi təriqətinə mənsub xocalar, qısa müddətdə Altışəhərdə (Kaşğariyyə) mühüm siyasi gücə çevrilmiş və Cungar hökmranlığı altındakı Şərq Türküstanı bir müddət idarə etmişlər.

XVIII əsrin ikinci yarısından etibarən isə Şərqi Türküstan Mancur-Çin işğalçılarının hücumuna məruz qalmışdır. Azadlıqsevər uyğur xalqı işğalçılara qarşı müqavimət göstərmiş, həmin dövrdə yaşamış şairlər, yazıçılar, elm adamları, mütəfəkkirlər də bu hadisələrdən kənarda qalmamışdır. XIX əsrin birinci yarısının qabaqcıl uyğur ziyalıları kimi Məhəmməd Sadıq Kaşğari, Əbdürəhim Nizari, Turdı Qəribi, İmir Hüseyn Saburi, Nazıqumun və başqalarının adlarını çəkmək olar. Bu ziyalılar bir sıra ictimai-siyasi, fəlsəfi-əxlaqi problemləri irəli sürmüş, zəhmətkeş xalq kütlələrinin mənəvi və sosial-siyasi cəhətdən azadlığı üçün öz səylərini göstərmişdilər. Onların dünyagörüşünün və etik görüşlərinin formalaşması və inkişafında dövrün sosial-siyasi hadisələri ilə bərabər, orta əsrlərdə yaşamış türk-islam düşüncəsinin inkişafına öz töhfəsini vermiş alimlərin - Yusif Balasaqunlu, Mahmud Kaşğari, Əhməd Yüknəki, Ömər Xəyyam, İbn-Sina, Əlişir Nəvainin və başqalarının mühüm rolu olmuşdur.

Uygurların sinfi və milli azadlıq mübarizəsi XIX əsr boyunca davam etmiş, bu mübarizə onların mənəvi həyatına, xüsusən ictimai, əxlaqi düşüncə sisteminə də təsirsiz ötüşməmişdir. Bu dövrdə Çin-Mancu sülaləsinin xalqa zülmü xalq dastanlarında, şeirlərində, ədəbi əsərlərdə öz əksini tapmışdır. Feodal təhkimçilik münasibətlərinin, müstəmləkə zülmünün hökm sürdüyü şəraitdə elmi-fəlsəfi yaradıcılığın inkişafı üçün real imkanlar demək olar ki, çox az idi. İctimai münasibətlərin inkişafı, zəhmətkeş xalqın, kəndlilərin mübarizəsi üçün gündəmdə olan problemlər əsasən ədəbi dildə öz əksini tapırdı. Xalq kütlələrinin qətiyyətli mübarizəsi, düşüncələri uyğur şair və mütəfəkkirlərinin yaradıcılığında öz əksini tapmışdır.

## 2.XVIII-XIX əsrlərdə uyğur mütəfəkkirləinin ictimai-fəlsəfi fikrinin formalaşması

Həmin dövrün görkəmli şəxiyyətlərindən biri olan tarixçi, şair **Məhəmməd Sadıq Kaşğari** (1725-1849) Kaşğarda anadan olmuş, ilk təhsilini dini məktəbdə almış, daha sonra təhsilini “Sace” mədrəsəsində davam etdirmiş, fars, ərəb dillərinə yiyələnmişdir. Təhslini bitirdikdən sonra bir müddət müəllim kimi fəaliyyət gösərmişdir. M.S.Kaşğari türk xalqları ədəbiyyatı ilə yaxından tanış olmuşdur. Onun çoxşaxəli yaradıcılıq irsinə tarix, siyasət, fəlsəfə, etik problemlər kimi geniş mövzular daxildir. Məhəmməd Sadıq əl-Kaşqari tarix, din, əxlaq kimi geniş sahələrdə əsərlər yazmış və uyğur ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Çağatay- uyğur ədəbiyyatının inkişafında Məhəmməd Sadiq Kaşqarinin rolu və xidmətləri əvəzsizdir.

O, dövrün hadisələrinə biganə qalmamış, dövlətin müstəqilliyi uğrunda xalqın mübarizə apararaq bu dövrdə daxili ixtilafları bir kənara qoyaraq düşmənə qarşı birgə mübarizə aparmağın vacibliyini vurğulayırdı. Kaşğari şeirlərində ictimai motivlər əsas mövzulardandır. Mütəfəkkirin etik baxışları Şərqi Türküstanda feodal-təhkimçilik münasibətlərinin, müstəmləkəçiliyin hökm sürdüyü bir vaxtda formalaşmışdır. Onun etik fikirləri “Ədəb əs-Salihin” əsərində öz əksini tapmır. M.S.Kaşğarinin etik düşüncəsində xeyir və şər kimi məfhumlar xüsusi yer tutur ki, bunları “yaxşılıq” və “yamanlıq” kimi ifadə etmişdir. Onun fikrincə, yaxşılıq insanın nəcib əməlinin nəticəsidir. Yaxşılıq zəhmətkeşə insanpərvər münasibət, zəifə, köməksizə, yoxsullara yardım və himayədarlıq, qarşılıqlı dəstəkdir. Yaxşılıq xalqın firavanlığıdır. Yaxşıya zidd olan hər şey pisdir. O, şərin mahiyyətini qanlı müharibələrdə, padşahların zorakılığında və ədalətsizliyində, qəddarlığı hiylədə, tamah və satqınlıqda, yalan və riyakarlıqda, istismarçıların tamah və ürəksizliyində görür [Бахавудун, Имин, Баудунов, 2012, s.117]. Əsər tədqiqatçı S.N.Likoşin tərəfindən “Şərqdə ədəb qaydaları” adı ilə rus dilinə tərcümə edilmişdir [Лыкошина, 1915].

Şair öz şeirlərində insani dəyərləri ucaldır. İnsanlara həyatın müvəqqəti olduğunu, ömrü yaxşı keçirməyin vacibliyini, həmçinin təlim-tərbiyənin, əxlaqın vacibliyini xatırladır.

M.S.Kaşğari şeirlərində insanlara sədaqətli, vicdanlı və dürüst olmağı tövsiyə edir. İnsanların bir-birinə zərər verməməsi, yaxşılıq etməyə çalışması vacibliyini önə çəkir:

“Ey, kim başqasına heç vaxt zərər verməz,
Nəfsi üçün bir başqa insana zülm etməz,
Həqiqət yolunda bir addım da geri çəkilməz –
Mən onu yaxşı insan hesab edirəm.

Məhəmməd Sadıq Kaşğarinin 1768-69-cu illərdə qələmə aldığı ən qiymətli əsərlərindən biri “Təskirəyi Əzizən” adlı əsəridir. Əsər 1680-1750-ci illərə qədər baş verən hadisələri, xüsusən Xocalar dövrünün tarixinə, mədəniyyətinə,

siyasi həyatına işıq salan dəyərli məlumatları, Cunqarların hakimiyyəti altında Şərqi Türküstanda baş verən siyasi vəziyyət özündə birləşdirir. Bu əsər haqqında ilk məlumatları verənlərdən biri də Çokan Vəlixanov olmuşdur. "Təskirəyi Əzizən" əsəri çağatayca yazılmışdır [Kumru, 2017, s.1249]. Əsər ilə bağlı aparılan tədqiqatlar göstərir ki, iyirmidən çox nüsxəsi mövcuddur və dünyanın müxtəlif kitabxanalarında saxlanılır. Nüsxələri Oksford, London, Paris, Berlin, Daşkənd, Urumçi, Pekin və Sankt-Peterburqdadır. Şərqi Türkistanda tapılan "Təskirəyi Əzizən" əsərinin üç nüsxəsindən birincisi 1785-1786-cı illərdə, ikincisi 1836-cı ildə, üçüncüsü isə 1907-ci ildə Molla Abdusemet Ahun tərəfindən köçürülmüşdür. Bu nüsxələr hazırda Sincan Uyğur Muxtar Vilayətinidə muzeydə saxlanılır. 1907-ci ildə kopyalanan əsər 1988-ci ildə Nicat Muhlis və Şemsidin Emet tərəfindən uyğur dilində nəşr edilmişdir [Öger, 2022, s.2].

Bundan başqa Məhəmməd Heydər Duqlatın "Tarixi Rəşidi" əsərininin Türk dilinə ilk tərcüməsi tarixçi alim Məhəmməd Sadıq Kaşğari tərəfindən edilmişdir. Bu tərcümə Kaşğar hakimi Yunus Təcibək ibn İskəndərbək ibn Emin Xacənin əmri ilə hazırlanmışdır. Tərcümə tam olmasa da, Türk dilindəki ilk tərcümədir. Tərcümənin əlyazma nüsxəsi Moskvadakı Asiya Xalqları İnstitutunun Şərq Ədəbiyyatları bölməsində yerləşən əlyazma kitabxanasında № C569 (5900) nömrəsi ilə qorunub saxlanılır [İ.Jemeney, 2014, s.23].

Zəhmətkeş xalqın sosial-siyasi vəziyyəti, əxlaqi görüşləri, mütərəqqi görüşləri ilə seçilən uyğur şairi **Əbdurəhim Nizari'nin** (1776-1849) əsərlərində də öz əksini tapmışdır. O, Kaşğar şəhərində anadan olmuş və ilk təhsilini dini məktəbdə, daha sonra mədrəsə almış, ərəb, fars, dillərini mükəmməl öyrənmişdir. Əbdurəhim Nizari'nin etik dünya görüşünün formalaşmasına əsas təsir göstərən dövrün şair və düşünürləri arasında Hirkatı (1634-1724), Salahı, Zəlləli (1674-1743), Növbəti (XVIII əsr), Şair Axun, Arşi və başqaları var idi. Bundan başqa Orta Asiya, Yaxın və Orta Şərqin qardaş xalqlarının fəlsəfi-etik düşüncələri də onun görüşlərinə təsir göstərmişdir. O, əsərlərində dəfələrlə Şərqin qabaqcıl düşünürlərinin adlarını - Firdovsi, Nizami, Rumi, Əlişir Nəvai kimi böyük şəxsiyyətləri xatırladır, onları öz müəllimləri sayır və onlara bənzəməyi arzulayırdı. Nizari 1835-ci ildə Kaşğar hakimi Zuhuriddin bəyin istəyi ilə saray katibi təyin edilmişdir. Əlişir Nəvaini özünə ustad hesab edən Ə.Nizari Zuhuriddin bəyin istəyi ilə 1838-ci ildə Ə.Nəvainin xəmsəsinin nüsxəsini köçürmüşdür. Əbdurəhim Nizari'nin həyatı və fəaliyyəti 18-ci əsrin sonu və 19-cu əsrin əvvəllərində Uygur xalqının Mançu hökmdarlarının zülmünə məruz qaldığı illərə təsadüf edir. Uyğurlar bu vaxt çox çətin həyat şəraitində yaşayırdılar. Şair həyatının çoxunu yoxsulluq içində keçirmiş, bu müddətdə xalqın üzləşdiyi feodal zülmünün şahidi olmuşdur. Bu vəziyyət onun zülmə məruz qalan xalqına olan həssas münasibətini və onlarla acını paylaşmaq duyğusunu daha da gücləndirmişdir.

Nəticədə, əsərlərində feodal sistemə qarşı tənqidi və xalqın maraqlarını nəzərə alan bir mövqe nümayiş etdirmiş, xalqın kədərini, istəyini canlı və realist bir dildə, təsirli şəkildə çatdırmışdır.

Ə.Nizarinin etik baxışları vətənpərvərlik, humanizm, xalqların arasında dostluq prinsiplərinə dayanır. O, müsbət qəhrəman obrazları yaradırkən onları yüksək əxlaqi keyfiyyətlərlə - xalqına sədaqət, vətən sevgisi, dürüstlük, ədalət, sadəlik, təvazökarlıq və s. ilə təqdim edirdi. Onun etik baxışlarında həyatın mənası və məqsədi, insanın xoşbəxtliyi kimi mövzular xüsusi önəm daşıyır. Düşünür ki, həyatın mənası - vətənin azadlığı, müstəqilliyi və əməkçi xalqın xoşbəxtliyi uğrunda mübarizədir. O hesab edir ki, insan həyatının əsas məqsədi xalq üçün xoşbəxtlik əldə etməkdir. Şair öz həyatının və xoşbəxtliyinin əsas mənasını vətənə, xalqa xidmət etməkdə, onun hüquq və mənafelərini qorumaqda, insan ləyaqəti və şərəfini müdafiə etməkdə görürdü [Баудунов, 2012, s.17].

“Banu” əsərində qeyd edirdi ki, hər bir insan o cümlədən kasıb da şah ola bilər, lakin bunun üçün o, xalqın həyatını yaxşı bilməli, ədalətli olmalı, qətiyyət, dəyanət, mərdlik, düzlük kimi müsbət əxlaqi keyfiyyətlərə malik olmalıdır. Həmçinin o, qeyd edirdi ki, insan əməklə özünə xoşbəxt həyat yaradır.

Ə.Nizari və T.Qəribinin etik baxışlarında eşq mühüm yer tutur. Onlar sufilərdən fərqli olaraq, bu hissin ən yüksək təzahürünü həyatın özünə məhəbbətdə görürdülər [Баудинов. 1979, s.243].

Ə.Nizarinin fikirlərinin davamçısı olan **Turdi Qəribi** (1802-1862) Kaşqarın Konaşəhər rayonun Karakaşlık kəndində anadan olmuşdur. Elə ilk təhsilini uyğur divan ədəbiyyatının görkəmli nümayəndəsi Əbdürəhim Nizaridən almışdır. Daha sonra Ə.Nizarinin dəstəyi ilə təhsilini Kaşqarın tanınmış mədrəsəsi olan “Xanlıq” mədrəsəsində tamamlamış, ərəb və farscanı burada öyrənmişdir. Onun həyatı haqqında məlumatlar olduqca məhduddur. 1835-ci ildə Kaşğar hakimi Zuhuriddin bəy onu saray kitabxanasının mirzəsi təyin etmişdir. Onun məlum olan iki əsərindən biri “Bəhram və Dilarəm” 1838-ci ildə Turfanda yazılmışdır. “Şah Bəhram”, “Bəhram Gur” kimi adlarla da tanınan əsər 15 fəsil, 22 mövzu və 2033 beytdən ibarətdir. Fars sultanı Bəhram ilə Çin hökmüdarının qızı Dilaramın sevgisindən bəhs edir. Bəzi mənbələrdə müəllif Nizari, digərləri Qəribi kimi göstərilsə də, son araşdırmalar hər iki şairin əsəri Turfanda birgə yazdığını göstərir. Əsərdəki şeirlərin bir qismi Qəribi təxəllüsündən, digərləri isə Nizari təxəllüsündən istifadə edir [Öger, 2022, s.457]. Mütəfəkkirin xalq arasında tanınan ən məşhur əsərlərindən biri 1842-ci ildə yazdığı “Kitabi Qəribi” əsəri də məhz Zuhuriddin bəyə həsr olunmuşdur. T.Qəribi öz əsərindəı müxtəlif peşələr haqqında məlumatlar verir. Bu peşələrin uyğur türklərinin sosial-mədəni və iqtisadi həyatında yeri və əhəmiyyətindən bəhs edir O, qeyd edirdi ki, bütün insanlar öz əməyi ilə xalqın

firavanlığına çalışmalıdır. Məsnəvi şəklində yazılmış əsər 32 fəsil və 978 beytdən ibarətdir. “Kitabi-Qəribi” əsərinin çağatay türkcəsi və ya yeni uyğur türkcəsi ilə ərəb əlifbasında yazıldığı qeyd edilir və əsas nüsxəsi Sincan Universitetində saxlanılır.

XIX əsrin I yarısında uyğur ictimai-fəlsəfi və siyasi fikrinin görkəmli mütəfəkkirlərindən biri də, **İmir Hüseyn Səburidir**. O uşaqlıq və gənclik illərindən elmə böyük maraq göstərmiş, türk yazıçılarının eləcə də ərəb müəlliflərinin əsərlərini mükəmməl şəkildə öyrənmişdir. Daha sonra o, özü müstəqil şəkildə öz dini-fəlsəfi ideyaları ilə çıxış etmişdir. M.H.Səburinin fikrincə, bütün dünya, aləm, heyvanlar aləmi, bütün mövcudat Tanrı vasitəsilə mövcuddur. Allah hər yerdədir, insan baxışını hansı tərəfə çevirsə, hansı tərəfə baxsa da, hər yerdə Allahı görür. Səburi də digər şərq mütəfəkkirləri kimi vahid İlahi substansiyanın mövcudluğuna inanırdı [Баудунов, 2012, s.28]. O öz əsərlərində humanizm prinsiplərini əsas götürmüş, zəhmətkeş insanların ideallarını ifadə etmişdir. O, “Tərcibənd” adlı poemasında əxlaqi məsələlərə geniş yer vermiş, xalqı istismar edənləri tənqid etmişdir.

**3.Nazıqum – uyğur xalqının azadlıq mübarizəsinin simvolu kimi**

Nazıqum vətəninin azadlığı uğrunda mübarizə aparmış Uyğurların milli qəhraman simvoluna çevrilmişdir. O, Şərqi Türküstanın Xotan şəhərində anadan olmuşdur. Təhsilli, savadlı, yüksək mənəvi dəyərlərə sahib olan bir Uyğur qadını kimi cəmiyyətdə böyük hörmət qazanmışdır. Əsl adı Xanipaqul olmuş, xalq arasında arasında onun ağlına, mərhəmətinə və gözəlliyinə görə Nazıqum (Zərif) adı verilmişdir. Onun zəkası, əxlaqi mövqeyi ilə ətrafdakı insanlar tərəfindən nümunə kimi qəbul edilmişdir. Ailəsi də Uyğur cəmiyyətində hörmətli bir mövqeyə malik olmuşdur; xüsusilə atası, Atuş şəhərində önəmli bir komandan və xalqının azadlığı üçün mübarizə aparan bir lider kimi tanınırdı. Nazıqumun ailəsi müstəmləkəçilik zülmünə qarşı mübarizədə həyatını itirmişdir. Sağ qalan yeganə yaxın qohumu olan qardaşı Abdulla ilə birlikdə minlərlə Uyğurun zorla sürgün edildiyi İli bölgəsinə göndərilmişdir. Bu sürgün, öz kimliklərini və mədəni varlıqlarını qorumaq uğrunda mübarizə aparan Uyğurlar üçün böyük bir sınaq olmuşdur. Nazuqum hər cür təzyiqə və hədəyə baxmayaraq, inandığı dəyərləri unutmamış, uyğur mədəniyyətinə və ənənələrinə bağlılığını qorumağa davam etmişdir. Nazıqumun yaradıcılığının əsasında zəhmətkeş uyğur xalqının müstəqillik uğrunda müharizəsi, vətənpərvərlik ideyaları dayanır. O, 1825-27-ci illərdə Kaşqardakı kəndli üsyanında iştirak etmiş, üsyan vəhşicəsinə yatırılmışdır. Zindanda keçirdiyi 24 gün ərzində Çin rəhbərləri tərəfindən davamlı sorğu-suala tutulmuş və ona təzyiq göstərilmişdir. Lakin o, ən ağır işgəncələrə baxmayaraq kimliyindən və inancından əl çəkməmişdir [Brophy, 2016: 211]. Onun bu qətiyyəti işğalçılar üçün təhdidə çevrilmiş və nəticədə edam edilməsinə qərar verilmişdir. Edam edilməzdən əvvəl dediyi son sözlər Uyğur

xalqının azadlıq mübarizəsinin simvolu kimi qəbul edilmişdir: “Kimliyimi və inancımı qoruyaraq xalqıma cəsarət verirəm.” [Gladney, 1999: 276]. Bu sözləri ilə Nazıqum Uyğur xalqının tarix yaddaşında əbədi bir qəhrəmana çevrilmişdir. Onun bu cəsarəti Uyğur xalqının qəlbində və yaddaşında həkk olunmuş, qəhramanlığı, mətanəti və hədsiz şücaəti haqqında əfsanələr yazılmışdır.

Nazıqumun hekayəsi, xüsusilə 19-cu əsr Uyğur ədəbiyyatının önəmli simalarından Molla Bilal Nazımın “Nazugum dastanı” adlı əsəri ilə əbədiləşmişdir. Bu dastan xalq arasında yayılan Nazugumla bağlı mahnıları və hekayələri bir araya gətirərək onun qəhrəmanlığını, işğalçılara qarşı dirənişini, əsir düşməsini və milli mübarizədə rolunu əks etdirir. Molla Bilal Nazımın əsəri Nazıgumun Uyğur xalqının azadlıq axtarışında olan qəhrəmanlığının və sarsılmaz iradəsinin simvolu olmasında əsas rol oynamışdır [Rümeysa, 2025, s.78].

Son dövrlərdə Sincanda nəşr edilən Nazımqumla bağlı yeni qəhrəmanlıq hekayələri Nazıqumun uyğur xalqının tarixi yaddaşında qaldığını, xalqı üçün dəyərli bir şəxsiyyət olduğunu göstərir. Bu hekayələr XX əsrdə vahid Uyğur milli kimliyi və təsəvvürləri ilə zənginləşdirilmişdi. Bu kimlik Nazıqumu Uyğur millətinin davamlı tarixi yaddaşının bir hissəsi kimi qəbul edir [Abramson, 2012, s.1076].

Uyğur mütəfəkkirləri əsərlərində insanın xoşbəxtliyini insanın həqiqi, yer üzündəki həyatı ilə əlaqələndirmişlər. Ona görə də həyatdan zövq almaq, mümkün qədər iztirab və qəm-qüssədən uzaq olmaq lazımdır. Mütəfəkkirlər insanlarda daha yaxşı gələcəyə ümidlər aşılayan, onları dünya səadəti üçün səy göstərməyə sövq edən nikbinlik oyatmağa çalışırdılar. XIX yüzilliyin birinci yarısında, yəni 1841-1842-ci illərdə Məhəmməd Sadıq Kaşğari, Əbdürəhim Nizari, Novruzaxun Ziyai, Turdı Qaribi, İmir Hüseyn Saburi, Nazuqumun və başqalarının əsərləri "Ədiblər hekayəsi" adı altında toplanaraq əlyazma şəklində xalq arasında sürətlə yayılmışdır. 30 min misradan çox olan bu kitaba bir çox dastanlar, qəzəl və müxəmməslər daxil olmuşdu.

Şərqi Türküstanda Çin müstəmləkəçiliyi başlandıqdan etibarən uyğur xalqının milli mədəniyyətinə və adət ənənələrinə qarşı mənfi münasibət özünü göstərmişdir. Böyük tarixi-bədii əhəmiyyətli mədəniyyət və memarlıq abidələri, dini məbədlərin dağıdılması, uyğur xalqının tarixi-mədəni irsinə dair yazılmış əsərlərin qadağan edilməsi bunları sübut edir. Çin-Mancur hökuməti üsyankar xalq kütlələrinə qarşı repressiya dalğasına başlamışdır.

**4.Nəticə**

XVIII–XIX əsrlərdə uyğur ədəbi və fəlsəfi irsi tək ədəbiyyat sahəsində deyil, həm də ictimai düşüncənin inkişafında mühüm bir mərhələni təşkil edir. Həmin dövrün ziddiyyətli şəraiti uyğur mütəfəkkirlərinin dünyagörüşünə, etik və ictimai-siyasi baxışlarına güclü təsir göstərmişdir. Bu dövrün ziyalıları və

şairləri, xüsusilə Məhəmməd Sadıq Kaşğari, Əbdurəhim Nizari, Turdı Qaribi, İmir Hüseyn Səburi və Nazıqum, əxlaqi dəyərləri, humanizmi və vətənpərvərliyi öz əsərlərində ön plana çıxarmış, sosial ədalət və xalqın rifahı uğrunda mübarizəni dəstəkləmişlər. Məhəmməd Sadıq Kaşğarinin ictimai və etik baxışları, Əbdurəhim Nizarinin humanist və vətənpərvər ideyaları, Turdı Qəribinin sosial-etik baxışları, İmir Hüseyn Səburinin dini-fəlsəfi dünyagörüşü Uyğur xalqının ictimai-fəlsəfi dünyagörüşünün inkişafında mühüm yer tutmuşdur. Bu dövrün fəlsəfi və ədəbi yaradıcılığı sosial zülm, feodal-təhkimçilik və müstəmləkəçiliyə qarşı ictimai-siyasi, etik və humanist düşüncələri əks etdirir. Uyğur şair və mütəfəkkirləri xalqın rifahını, azadlıq və ədaləti əsas məqsəd kimi irəli sürərək öz əsərlərində ictimai motivləri ön plana çıxarmışlar.

## 5.ƏDƏBİYYAT


**1.** Бахавудун, И., Имин, А. & Баудунов, А. (2012). *Династия уйгурских интеллектуалов*. Бишкек: ОАО «Эркин-Тоо», 208 с.

**2.** Лыкошина, Н. С. (1915). *Кашгари Мухаммад Садык. Хороший тон на Востоке (Адаб-уль-салихин)*. Перевод. Пг., 1915 г.

**3.** Öger, A. (2022). *Tezkire-i azizân (Keşkerî)*. Türk Edebiyatı İsimler Sözlüğü.

**4.** Öger, A. (2022). Uygurlarda geleneksel meslekleri konu alan Çağatayca bir eser: *Kitâb-ı Garîbî*. *Türk Kültürü ve Hacı Bektaş Veli Araştırma Dergisi*, s.453–469.

**5.** Kumru, C. (2017). Tezkireyi Hacegana göre Doğu Türkistan'da Hocalar dönemi. *Ulakbilge*. Ankara, s.1247–1267.

**6.** Jemeney, İ. (2014). Tarih-i Reşidi: tercümeleri ve el yazma nüshaları hakkında. *Gazi Türkiyat,* Bahar 2014(14), s.21–27.

**7.** Баудунов, А. (2012). *Философско-этическая мысль уйгуров первой половины XIX века*. Бишкек, 45 с.

**8.** Баудинов, А. (1979). Этические воззрения прогрессивных уйгурских поэтов первой половины XIX в. В *Актуальные проблемы советского уйгуроведения: Материалы I республиканской уйгуроведческой конференции (29–31 мая)*. Алма-Ата, с.240–243.

**9.** Rümeysa, A. (2025). Doğu Türkistan direnişinde kadın kimliği ve Nazugım (Nazugum) hikâyesinin önemi. *Uluslararası Uygur Araştırmaları Dergisi*, Sayı 25, s.73–89.

**10.** Abramson, K. (2012). Gender, Uyghur identity, and the story of Nuzugum. *The Journal of Asian Studies*, *71*(4), pp.1069–1091.

## REFERENCES

**1.** Bakhavudun, I., Imin, A., & Baudunov, A. (2012). *The dynasty of Uyghur intellectuals*. Bishkek: Erkin-Too Publishing House, 208 p. (in Russian)
**2.** Lykoshina, N. S. (1915). *Kashgari Muhammad Sadyk: Good manners in the East (Adab al-salihin)* (Translation). Petrograd, 1915. (in Russian)
**3.** Oger, A. (2022). *Tezkire-i azizan (Keshkeri). Dictionary of Names in Turkish Literature*. (in Turkish)
**4.** Oger, A. (2022). A Chagatai work on traditional professions among the Uyghurs: *Kitab-i Garibi*. *Journal of Turkish Culture and Haci Bektash Veli Studies*, pp.453–469. (in Turkish)
**5.** Kumru, C. (2017). The period of the Khojas in East Turkestan according to the Tezkire-yi Hacegan. *Ulakbilge*, Ankara, pp.1247–1267. (in Turkish)
**6.** Jemeney, I. (2014). Tarikh-i Rashidi: On its translations and manuscript copies. *Gazi Turkiyat*, Spring 2014(14), pp.21–27. (in Turkish)
**7.** Baudunov, A. (2012). *Philosophical and ethical thought of the Uyghurs in the first half of the 19th century*. Bishkek, 45 p. (in Russian)
**8.** Baudunov, A. (1979). Ethical views of progressive Uyghur poets of the first half of the 19th century. In *Current problems of Soviet Uyghur studies: Proceedings of the First Republican Conference on Uyghur Studies (May 29–31)*. Alma-Ata, pp.240–243. (in Russian)
**9.** Rumeysa, A. (2025). Female identity in the East Turkestan resistance and the significance of the story of Nazugum. *International Journal of Uyghur Studies*, 25, pp.73–89. (in Turkish)
**10.** Abramson, K. (2012). Gender, Uyghur identity, and the story of Nuzugum. *The Journal of Asian Studies*, *71*(4), pp.1069–1091. (in English)